*Həsənov Zöhrab Məhyəddin oğlu, aspirant*
*Taras Şevçenko adına Kiev Milli Universiteti,*
*E-mail: zohrabhasanov1983@gmail.com*

# İCTİMAİ XİDMƏTLƏR SFERASININ TƏDQİQ EDİLMƏSİNİN BƏZİ NƏZƏRİ VƏ METODOLOJİ ASPEKTLƏRİ

Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycanda dövlət quruculuğu ilə paralel olaraq bazar iqtisadiyyatı sisteminin fəaliyyət prinsiplərinə uyğun kompleks islahatlar həyata keçirilmişdir. Yeni iqtisadi inkişaf modeli əsasında formalaşmış sosial-iqtisadi münasibətlərin məzmununda mütəmadi olaraq müəyyən dəyişikliklər baş verir. Bu dəyişikliklərin baş verməsinin əsas səbəbi beynəlxalq səviyyələrdə yaranan trendlərlə bağlıdır. Belə ki, bu trendlər yeni sosial-iqtisadi və hərbi-siyasi proseslərin yaranmasına və istiqamətlənməsinə öz təsirini göstərir. Dünya ictimaiyyətinin postindustrial cəmiyyətdən rəqamsal cəmiyyətə keçməsi dünyanın bütün ölkələri kimi, Azərbaycana da öz çağırışlarını edir və bu səbəbdən də dəyişən vəziyyətə uyğunlaşmaq zəruriyyəti yaranır. Bu səbəbdən yeni şəraitə və yeni vəziyyətə uyğun olan adaptiv

mexanizmin formalaşdırılması üçün qeyd olunan problemlərin araşdırılması zəruriyyəti yaranır.

Bu da bir həqiqətdir ki, iqtisadi həyatda əldə edilən dəyərlərin istehlakı sosial sferada reallaşır. Odur ki, yuxarıda sözügüdən dəyişikliklərin baş verməsi təkcə iqtisadi deyil, həm də sosial sahədə baş verir. Sosial həyat birbaşa insan kapitalı ilə bağlıdır. İnsan kapitalının formalaşması və inkişafı sosial sferanın bir sıra sektorlarını özündə ehtiva edir: təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal təsərrüfatı, bədən tərbiyyəsi və idman və s. Qeyd olunan sektorlar üzrə göstərilən xidmətlərə ictimai xidmət və yaxud ictimai sərvət deyilir. R.M.Nuriyevin fikrinə görə, xalis ictimai sərvət (pure public good) dedikdə, onun dəyərinin ödənilməsindən asılı olmayaraq bütün vətəndaşlar tərəfindən istehlak olunan xidmət başa düşülür (2, s. 531)

Bəzi alimlərin fikrinə görə, ictimai sərvətlər üç yerə bölünür: xüsusi, qarışıq, kommunal və sosial sərvətlər. Adətən, ictimai sərvətlərin qiymətlərini müəyyənləşdirmək olmur. Məsələn: məktəb, park, bulvar və s. Lakin, elə ictimai sərvətlər də vardır ki, həmin sərvətlərin qiymətlərini müəyyənləşdirmək olur. Məsələn: basseyn, tennis kordu, oyun zalları və s. İctimai sərvətin bir xüsusiyyəti də ondan ibarətdir ki, bu sərvətlər bölünməzdir, yəni hər hansı bir istehlakçıya ayrı-ayrılıqda xidmət göstərilmir.

Bazar münasibətləri inkişaf etdikcə ayrı-ayrı sosial xidmətlər sektorları üzrə dövlət satıcı kimi iştirakını minimallaşdırmağa çalışır və eyni zamanda göstərilən xidmətlərin optimal uzlaşması məqsədini həyata keçirən bir tənzimləyici rolunu oynayır (1, c. 203-211). Bütövlükdə götürdükdə isə, dövlət ictimai xidmətlərin göstərilməsi prosesində özü ilə bazar institutları arasında bir optimal uzlaşmanın yaranmasına daim çalışır. Əgər biz öz ölkəmizdə sosial sahədə ictimai xidmətlərin göstərilməsində dövlətin və bazar institutlarının xüsusi çəkisini müəyyənləşdirməyə çalışsaq, onda görərik ki, bizim ölkəmizdə də sözügedən trend baş verir. Amma, bir məsələ də var ki, bizim dövlətimizin bu sahədə fəaliyyəti proqram xarakteri daşıyır. Belə ki, ölkəmizdə indiyə kimi həyata keçirilən islahatların hamısında sosial-iqtisadi inkişafın prioritetləri həmişə konkret müəyyənləşdirilmişdir.

Hal-hazırda Azərbaycan bazar iqtisadiyyatı münasibətləri əsasında demokratik cəmiyyətin formalaşmasına yönəldilmiş sosial iqtisadi islahatların yeni mərhələsindədir. İqtisadi münasibətlərin qloballaşması, rəqəmsal cəmiyyətə keçid və elmi-texniki potensialın sosial yönümdə yenidən istiqamətləndirilməsi ictimai xidmətlərin təklifində bir sıra dəyişikliklərin həyata keçirilməsini şərtləndirir.

Yuxarıda qeyd olunan dəyişikliklərin zamanında dəyərləndirilməsi əsasında ölkədə "Azərbaycan- 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri" adlı proqram qəbul edilmişdir. Qəbul olunmuş proqramda insan kapitalının inkişafı ilə bağlı sektorlar üzrə islahatlar mütləq prioritetlər kimi müəyyən edilmişdir. Bu, ilk növbədə, sosial sfera sahələrini: təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal təsərrüfatı, bədən tərbiyyəsi, idman və turizm sahələrini əhatə edir.

Bir məsələni də qeyd etmək lazımdır ki, sosial sferada həm ictimai, həm də fərdi maraqlar bir biri ilə uzlaşır. Bu maraqların inkişaf vektorları heç də həmişə üst- üstə düşmür. Fərdi maraqlar özəl maliyyələşdirmə, ictimai maraqlar isə, daha çox ictimai maliyyələşdirmə mexanizmi vasitəsilə həyata keçirilir.

Xidmət sferasının sistemli və kompleks araşdırılması zamanı görürük ki, sosial sfera xidmət sferasının mühüm tərkib hissəsidir və onun ümumi xüsusiyyətlərini əks

etdirir. Bununla yanaşı, sosial sfera özünün xassələri və sosial-iqtisadi funksiyaları ilə bağlı spesifik xüsusiyyətlərə də malikdir.

Ölkə iqtisadiyyatını araşdırarkən onun strukturunun və tərkib hissələrinin müəyyənləşdirilməsi metodoloji baxımdan xüsusi əhəmiyyət kəsb edir. Rəsmi beynəlxalq statistikanın təcrübəsində ölkə iqtisadiyyatının ilkin (kənd və meşə təsərrüfatı, ovçuluq və balıqçılıq), ikinci (emal, dağ-mədən sənayesi, tikinti, elektrik enerjisi istehsalı, su və qaz hasilatı) və üçüncü sektor (xidmət sferası sahələri) üzrə üç sektor bölgüsü meyarları geniş istifadə olunur.

Qeyd olunan təsnifləşdirmə metodologiyasına uyğun olaraq, ümumi daxili məhsulun (ÜDM) sektorlar üzrə məşğul olanların bölgüsü aparılır. Bu məlumatlar əsasında müəyyən bir tarixi dövr ərzində sektorlar arasında nisbətlərin dəyişməsi dinamikası da müəyyən edilir. Bu, müasir cəmiyyətin inkişafının sənaye mərhələsindən postsənaye mərhələsinə keçid meyllərini, mərhələlərini və templərini müəyyən etməyə imkan verir.

Birinci sənaye inqilabından bu günümüzə kimi ictimai inkişafın praktikası göstərir ki, aqrar sektor sivilizasiyanın inkişafı dövründə ilkin sektor, sənaye dövründə ikinci sektor, postsənaye cəmiyyətinin təşəkkülü dövründə isə üçüncü sektor olaraq üstünlük təşkil edirdi. Lakin, xidmət sferası sahələrinin müxtəlif qrupları postsənaye cəmiyyətinin təşəkkül dinamikasını müxtəlif cür əks etdirdiyi üçün, elmi ədəbiyyatda müasir sivilizasiyanın inkişafının obyektiv xarakteristikasını vermək məqsədilə, xidmət sferasının özünü üç sektora bölmək təklif olunur: sırf üçüncü (maddi istehsala servis xidmətləri), dördüncü sektor ticarət, maliyyə, sığorta, daşınmaz əmlaka xidmət üzrə əməliyyatlar) və beşinci sektor (elmi-informasiya, təhsil, işgüzar və dövlət idarəçiliyi üzrə xidmətlər).

Müasir dünya təcrübəsində bazar iqtisadiyyatında təsərrüfat fəaliyyətinin identifikasiyası üçün BMT-nin bütün iqtisadi fəaliyyət növlərinin Beynəlxalq Sahəvi Standart Təsnifatından (BSST) geniş istifadə olunur. Hal- hazırda BSST- nin 4-cü təftiş edilmiş versiyası fəaliyyət göstərir. Bu təsnifatın birinci mərhələsində 21 bölmə ayrılır. Onlar iqtisadiyyatın ən mühüm sahələrini təmsil edirlər:

- kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq;
- dağ- mədən sənayesi və karxanaların işlənməsi;
- emal sənayesi;
- elektrik enerjisi, qaz, buxar və kondisionerləşdirilmiş hava təchizatı;
- su təchizatı; kanalizasiya sistemləri, tullantıların xaric edilməsi və ətraf mühitin bərpası tədbirləri;
- tikinti;
- topdan və pərakəndə satış, avtomobil və motosiklet təmiri;
- nəqliyyat və anbar təsərrüfatı;
- yerləşdirmə servisi və ictimai iaşə;
- informasiya və rabitə;
- maliyyə və sığorta fəaliyyəti;
- daşınmaz əmlak əməliyyatları;
- peşə, elmi və texniki fəaliyyət;
- inzibati və yardımçı xidmətlər sferasında fəaliyyət;
- dövlət idarəçiliyi və müdafiə; icbari sosial sığorta;

- təhsil;
- səhiyyə və sosial xidmətlər sferasında fəaliyyət;
- incəsənət, əyləncə və istirahət sferası;
- xidmət sferasında digər fəaliyyət növləri (üzvlük təşkilatlarının fəaliyyəti, kompüterlərin, məişət mallarının və şəxsi istifadə əşyalarının təmiri);
- ev təsərrüfatlarının fəaliyyəti;
- xarici ərazi tabeli təşkilat və orqanların fəaliyyəti.

İctimai xidmətlərin göstərilməsinə aid nəzəri, metodoloji və praktiki materialları araşdıran zaman sosial sfera anlayışı ilə yanaşı, elmi ədəbiyyatda tez- tez sosial infrastruktur anlayışından istifadə olunur. Bir sıra alimlərin və ekspertlərin fikrincə, bu anlayış əhalinin rifahının, xidmətlərin, həyat keyfiyyətinin müvafiq səviyəsini bilavasitə maddi istehsal sferasından kənarda təmin edən əhalinin həyat sahələri ilə bağlı tədqiqat və praktiki fəaliyyət sahəsini daha dəqiq qeyd etmək cəhdi kimi istifadə olunur. Bir sözlə, söhbət qeyri- istehsal sferasından gedir.

Bir məsələni də qeyd etmək lazımdır ki, XX əsrin 90-cı illərinin əvvəllərinə kimi SSRİ Dövlət Statistika Komitəsinin təsnifatı fəaliyyət göstərirdi. Bu təsnifata uyğun olaraq, maddi istehsal sferası 12 ən iri sahəni əhatə edirdi: sənaye; tikinti; kənd təsərrüfatı; meşə təsərrüfatı; istehsal fəaliyyəti sahəsində su təsərrüfatı; neft və təbii qazın dərin kəşfiyyat qazması sahəsində yerin təkinin geologiyası və kəşfiyyatı; yük nəqliyyatı; istehsal sferası müəsisələrinə xidmət üzrə rabitə; ticarət və ictimai iaşə; maddi-texniki təminat; tədarük; maddi istehsal sferasının digər fəaliyyət növləri.

Qeyri- istehsal sferasına 2 sahələr qrupu aid edilir:

1) Xidmətləri cəmiyyətin ümumi, kollektiv tələbatlarını ödəyən sahələr; yerin təkinin geologiyası və kəşfiyyatı; su təsərrüfatı; idarəetmə; elm və elmi xidmət; ictimai təşkilatlar; kreditləşmə və dövlət sığortası;

2) Əhalinin mədəni - məişət və sosial tələbatını ödəyən sahələr: mənzil - kommunal təsərrüfatı; məişət xidməti; xalq təhsili; mədəniyyət və incəsənət; sərnişin nəqliyyatı və rabitə; səhiyyə, bədən tərbiyyəsi və sosial sığorta.

Yuxarıda qeyd olunan metodologiyaya uyğun təsnifləşdirmədə maddi istehsal sferasından fərqli olaraq, qeyri-istehsal sferası iş prosesində maddi nemətlər yaradılmayan bütün fəaliyyət növlərini özündə ehtiva edir. Qeyri-istehsal sferasında məşğul olan insanların əməyinin təsir istiqaməti təbiətə yönəlmir. İnsan-insan arasında yaranan, formalaşan və təşəkkül tapan qarşılıqlı əlaqələr bazasında qərarlaşmış münasibətlər sistemini əhatə edir. Bir məsələni də qeyd etmək lazımdır ki, qeyri-istehsal sferasında maddi nemətlər yaradılmır. Bununla belə, səmərəli əmək fəaliyyəti xidmətlər formasında təzahür edir.

Araşdırmalar göstərir ki, adətən, sosial sfera iki əsas müstəvidə - sosial məkan çərçivəsində ictimai münasibətlər, sosial qruplararası əlaqələr sistemi və insanların təbiətlə, iqtisadiyyatla qarşılıqlı əlaqələri vasitəsilə reallaşdırılır. Bir iqtisadi kateqoriya kimi isə, sosial sfera insanların sosial və mənəvi tələbatlarını ödəmək üçün özünəməxsus iqtisadi münasibətlərin məcmusudur. Bu prizmadan yanaşdıqda görürük ki, sosial infrastruktur xüsusi olaraq sosial məkanın təşkilinin tərkib hissəsi kimi özünü biruzə verir.

Beləliklə, qeyri-maddi istehsal sferasına aşağıdakı sahələr aid edilir:

- kommunal xidmətlər;

- əhalinin məişət xidməti;
- səhiyyə;
- bədən tərbiyyəsi və idman;
- sosial təminat;
- təhsil;
- mədəniyyət və incəsənət;
- elm və elmi xidmət;
- maliyyə, kredit, sığorta;
- pensiya təminatı;
- idarəetmə;
- ictimai birliklər;
- turizm;
- media və informasiya texnologiyaları;
- rabitə;
- təbiətin mühafizəsi fəaliyyəti;
- ictimai iaşə;
- sərnişin nəqliyyatı.

Sosial sferanın strukturuna isə, elm və elmi xidmət, maliyyə, kredit və sığorta sahələrindən başqa yuxarıda qeyd olunan bütün sahələr daxildir. Sosial – mədəni sferaya isə, yalnız aşağıdakı sahələr aid edilir:

- səhiyyə;
- bədən tərbiyyəsi və idman;
- təhsil;
- mədəniyyət və incəsənət;
- ictimai birliklər;
- media və informasiya xidmətləri.

Aparılan tədqiqatlar nəticəsində belə bir nəticəyə gəlinir ki, ictimai xidmətlər sferası bir sistem olaraq çox mürəkkəb sistemlərə aid edilir ki, bu sistemin məzmununda mütəmadi olaraq dəyişikliklər gedir. Bu dəyişikliklərin baş verməsinə həm daxili, həm də xarici amillər öz təsirini göstərir. Son onilliklərdə dünya ölkələrinin qarşılıqlı asılılığı daha çox artmışdır. Məhz bu səbəbdən də hər hansı bir ölkənin sosial – iqtisadi sisteminin səmərəli fəaliyyət göstərməsi zamanı xarici amillərin həlledici təsiri mütləq nəzərə alınmalıdır. Müasir zamanımız postindustrial cəmiyyətdən rəqəmsal cəmiyyətə keçidlə səciyyələnir və bu keçidin sürəti bütün ölkələr üçün eyni deyildir. Odur ki, beynəlxalq səviyyədə baş verən trendlərə uyğun adaptiv mexanizmin formalaşdırılması milli maraqlar baxımında son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Bundan başqa, xidmət sferası həddən artıq mürəkkəb sistem olduğu üçün bu sferanın strukturu, tərkib hissələri və tərkib hissələri arasında olan əlaqələri araşdırma zamanı mütləq müəyyən metodologiyadan istifadə etmək zəruriyyəti yaranır. Bu metodologiyalar yaranır və zaman – zaman, obyektiv gerçəkliyin məzmununda dəyişikliklər baş verdikcə digərləri ilə əvəzlənir. Müair dövrdə, ictimai xidmətlərin təsnifləşdirilməsi daha çox BMT- nin təklif etdiyi metodologiya üzərində həyata keçirilir.

## İstifadə olunmuş ədəbiyyat:


1. E. Карандашина Е.А. Коновалова У.И. Рынок услуг: понятие и структура. Экономические науки, 2008. № 9 (46), ст 203-211.
2. Nureyev P.M. Теория общественного выбора. Курс лекций. Москва, GU VSH Publ., 2005. 531 p.
3. Коуз Р. Заметки к проблеме социальных издержек // www.libertarium.ru.
4. RANDALL G. HOLCOMBE. Public Goods Theory and Public Policy. The Journal of Value Inquiry 2000, Vol. 34, pp. 273-286.
5. Handbook of Public Economics, 1987.
6. Public goods. https://plato.stanford.edu/entries/public-goods/.